Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 147 (5611) 10 sentyabr 2019-cu il | Qiyməti 20 qəpik

## Naxçıvanda komanda - qərargah təlimləri



Naxçıvan Qarnizonu qoşunlarında ərazidə ikitərəfli üçpilləli komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün praktiki fəaliyyətlərə cəlb edilmiş birləşmə və hissələr təlim-döyüş həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb. "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən keçirilən komanda-qərargah təlimi sentyabrın 14-dək davam edəcək.

## "Danışıqların uzanması şübhələrin yaranmasına rəvac verə bilməz..."



*Dünən hərbi hissəyə getdim, əsgərlərimizlə görüşdüm.*

**Onlarla bir yerdə yemək yedik.**

**Bir daha Ordumuzla, qəhrəman əsgərlərimizlə qürur duydum.**

Onlar əsl igidlərdir.

Məlum aprel döyüşlərini yaradan igidlər.

Azərbaycan fəxr edə bilər ki, belə ordumuz, belə qəhrəman əsgərlərimiz var.

**Bu cangavərlərin qarşısında heç kim duruş gətirə bilməz.**

Ermənilər də bilir. Ona görə də siyasi şoular təşkil edir, zəiflik, gücsüzlük kompleksini ört-basdır etməyə çalışırlar.

Yazıqlar olsun ki, xaricdə sığınacaq tapmış müxalifət nümayəndələri Ordumuzla fəxr edib qürur duymaq əvəzinə Ermənistana və onun prezidentinə heyranlıqlarını gizlədə bilmirlər.

**Onlara nə ad verək, bəlkə siz deyəsiniz.**

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın geri qaytarılması heç kimdə sübhə doğurmasın.

**Münaqişəni həll etmək üçün danışıqlar prosesində iştirak etməyimiz, danışıqların uzanması belə şübhələrin yaranmasına rəvac verə bilməz və verməməlidir.**

Çünki son sözü Azərbaycan əsgəri, Azərbaycan Ordusu və Azərbaycanın Ali Baş Komandanı deyəcək.

**Eşq olsun Azərbaycan əsgərinə.**

**Əli ƏHMƏDOV,**
**Baş nazirin müavini**

## GÖRƏN, ERMƏNİLƏR KƏLBƏCƏRƏ QAZI ÇƏKİB QURTARDILAR?!



**Kəlbəcər soyuq yer, qarşıdan da qış gəlir. Belə adam nayran qalır ey.**

## BU GÜN YƏQİN XİN-in BOMBA KİMİ BİR BƏYANATI OLACAQ



*Qarabağda (Dağlıq Qarabağ yox ey, Qarabağda) separatçı rejim öz parlamentinə seçkilər keçirib. Və bu seçkilərdə 57 min nəfər 228 məntəqədə səs verib.*

*Yəqin bu gün xalqımızın sevimli nazirliyi olan Xarici İşlər Nazirliyi elə bir bəyanat verəcək ki, Xankəndində bomba kimi partlayacaq. Bəlkə qorxularından seçkilərin nəticələrini ləğv elədilər.*

## MƏMMƏDYAROV MNATSAKANYANLA GÖRÜŞSÜNMÜ, GÖRÜŞMƏSİNMİ?





*Bu nemesin familiyası da adamın dilinə yatmır, amma adı gül kimi addı - Zöhrab. Deməli, bizim hörmətli Məmmədyarovu görüşə dəvət edib. Baxıram mətbuatda müzakirə aparırlar ki, Məmmədyarov görüşə getsin, yoxsa yox. Politoloqlar, siyasətçilər əsasən etiraz edirlər ki, getməsin. "Qarabağ Ermənistanındır"- deyən bir adamla görüşməyin nə mənası?*

*Amma mən istəyirəm getsin. Bir-iki yaxşı şəkil çəkdirsinlər, böyüdüb asaq kabinetimizdən. Üzlərindəki təbəssüm çox xoşuma gəlir.*

## XRUŞŞOVA DA POMİDOR ATMIŞDILAR



**Nikita Serqeyeviç Amerikada olanda BMT-nin binasına gedərkən ona pomidor atmışdılar. O da baş barmağını başına qoyub əl işarəsi ilə bildirmişdi ki, sənin başın xarabdı və gülmüşdü.**

Srağagün də CHP-nin başkanı Kılıçdaroğlu Kuşadasında çıxış edərkən Xruşşova pomidor atan səfeh kimi bir adam onu yumurta atəşinə tutub.

Aparıblar polisə.

O da deyib:

- Məni tuta bilməzsiz. Heç üç-dörd ay bundan əvvəl şəhid dəfnində onu basıb döydülər, döyənlərə nəinki güldən ağır söz dedilər, hətta onu qəhrəman adlandırıb hökumət adamları onunla şəkil çəkdirib.

Polislər də deyib:

- Düz deyirsən, qardaş. Üzr istəyirik, gedə bilərsən.

## NİKOLA YURÇEVİÇ KİŞİ KİMİ SÖZ VERDİ



**Nikola bilirsiniz də kimdi? Bizim yarımmilli komandanın qeyri-milli məşqçisi. Kişi kimi söz verdi ki,qrupda 5-ci yer bizimdi. Əjdahadı ey, mütləq sözünün üstə duracaq. Mən buna inanıram.**

## HƏLƏ YAŞAMAĞA DƏYƏR BİR AZ DA



**Milli qəhrəman Albert Aqarunovun heykəlinin müəllifləri qonorardan imtina ediblər.**

## GÜNÜN LƏTİFƏSİ

İki qadın söhbət edir:

- Az, ərin sənə pul verir heç?

**- Həə, əlbəttə, nə vaxt istəyirəm verir.**

- Doğrudaaaan?! Necə alırsan ki? Deginən biz də alaq da, bizimki heç vermir.

**- Atamın xarabasına gedərəm bir də geri dönmərəm - deyirəm.**

- Aha, sonra?

**- O da həmin dəqiqə çıxarıb yol pulu verir.**

# Prezidentin köməkçisi: “Onun fikirləri iqtidarın mövqeyini əks etdirmir”



**”Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır”.**

Bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

O bildirib ki, Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından dünən yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olub: ”Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilmiş və bu gün də dəyişməz olaraq qalır.

Xatırladıram ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilmiş və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanlandığı həmin müraciət, əslində sadəcə yeni bir siyasi partiyanın deyil, qurulduğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi. Müraciətdə ümummilli lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi. Hakimiyyətdə olduğu bütün müddət ərzində ümummilli lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, mili birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır. Azərbaycan tarixində həm də, senzuranı ləğv etmiş rəhbər kimi ümummilli lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığını müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət ümummilli liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi ”mən bütün azərbaycanlıların prezidentiyəm” açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir”.

## *İspaniya Aİ-Azərbaycan sazişinin yaxın zamanlarda imzalanacağını gözləyir*

**İspaniya Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişinin yaxın zamanlarda imzalanacağını gözləyir.**

Bunu İspaniyanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili İqnasio Sançes Taboada deyib.

O bildirib ki, İspaniya hökuməti Azərbaycanla Aİ üzv ölkələri, o cümlədən rəsmi Madrid arasında ticarətin liberallaşması üzrə müvafiq bəndin yer aldığı yeni sazişin imzalanmasına ümid edir: ”Ticarət bu gün kompleks siyasətdir. Məhz Aİ bütün üzv ölkələrin adından ticarət sazişləri üzrə danışıqlar aparır. Biz gözləyirik ki, saziş iki illik məhsuldar danışıqlar nəticəsində qısamüddətli perspektivdə imzalanacaq”.

# Vasif Talıbov yeni fond yaratdı

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Elmin İnkişafı Fondu yaradılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərəncam imzalayıb.

Sərəncama əsasən, Elmin İnkişafı Fondu Naxçıvan Muxtar Respublikasında fundamental elmi yeniliklərin stimullaşdırılmasını, onun təbii resurslarının, mədəni və tarixi irsinin tədqiqinin genişləndirilməsini, elmin müxtəlif sahələrində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən innovativ layihələrin dəstəklənməsini təmin etmək məqsədi ilə yaradılıb. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun nizamnaməsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etməsi tapşırılıb.



# Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının iclası keçirilib

**Paytaxtda ”Gənclərin sosial və siyasi proseslərdə rolu və qadınların fəallığının gücləndirilməsi” mövzusunda konfrans, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib.**

ICAPP-ın Baş katibi Park Ro-byug tədbirin gündəliyi barədə məlumat verdikdən sonra ilk öncə Azərbaycan Respublikası Baş Nazirinin müavini-İcra katibi Əli Əhmədov çıxış edib.

ICAPP-ın Asiya qitəsində ictimai-siyasi proseslərin, bir sıra problemlərin müzakirəsi baxımından vacib platforma olduğunu deyən Əli Əhmədov bugünkü toplantıda təşkilatın gələcək fəaliyyəti ilə bağlı faydalı qərarların qəbul olunacağına ümidvar olduğunu bildirib. Əli Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası İCAPP-ın fəal üzvü kimi bu təşkilatla səmərəli əməkdaşlıq edir.

Baş nazirin müavini vurğulayıb ki, cəmiyyətin və bəşəriyyətin gələcəyini Asiya ölkələrində bu gün müşahidə olunan inkişafdan ayrı təsəvvür etmək mümkün deyil. Onun sözlərinə görə, Asiya dünya iqtisadiyyatının inkişafına böyük töhfələr verir.

Sonra çıxış edən ICAPP Gənclik Qolunun sədri, Malayziya Parlamentinin üzvü Seri Şahidan bin Kassim ölkəmizə ikinci dəfə səfər etdiyini və ötən dövr ərzində böyük inkişafın şahidi olduğunu, Bakının isə dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini söyləyib. O qeyd edib ki, Bakıda keçirilən tədbirdə Asiya ölkələrindən olan müxtəlif baxışlara malik gənclər iştirak edirlər:

”Bu günün gəncləri sabahın liderləridir. Bu isə imkan verir ki, onlar gələcəyin siyasətçisi, lideri kimi qətiyyətli və vacib qərarlar qəbul edə bilsinlər”.



Azərbaycanın Avropa ilə Asiyanın qovşağında yerləşdiyini bildirən qonaq tədbirin məhz Bakıda keçirilməsinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, gənclərin cəmiyyətdə sosial ədalətin bərqərar olunması istiqamətində fəaliyyəti vacibdir və onlar bu prosesə ciddi töhfə verməlidirlər. Daha sonra çıxış edən İCAPP Qadınlar qolunun həmsədri, Nepal Parlamentinin üzvü Sujata Koirala bugünkü iclasın qadınların ictimai həyatda iştirakçılığının gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O bildirib ki, qlobal dünyada gender bərabərliyinin təmin edilməsində mühüm nailiyyətlər əldə olunub, qadınların parlamentdə və dövlət qurumlarında təmsilçiliyi xeyli artıb. İCAPP fəaliyyət göstərdiyi dövr ərzində qadınların mövcud problemlərinin həlli istiqamətində zəruri işlər görüb.

Çıxış edən Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova da tədbirin əhəmiyyətindən danışıb. B.Muradova vurğulayıb ki, dünyada mövcud olan ictimai-siyasi durum, bütün qitələri təhdid edən təhlükələr və çağırışlar bizi ən müxtəlif formatlarda beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə siyasi partiyaların birlikləri olan İCAPP tipli təşkilatlarda birləşməyə vadar edir. Bu regionda siyasi partiyaların bir araya gəlməsi və regionun inkişafı üçün, qarşıda dayanan hədəflərə nail olması üçün yolların axtarılması çox vacibdir.

Gənclər və idman naziri Azad Rəhimov isə çıxışında Azərbaycanın dövlət gənclər siyasəti haqqında məlumat verib.

O bildirib ki, ölkəmizdə gənclərlə bağlı bır sıra Dövlət Proqramları qəbul olunub. Əhalimizin 30 faizindən çoxunu gənclər təşkil edir.

Prezident İlham Əliyev tərəfindən gənclərin inkişafı üçün yaradılmış şərait nəticəsində dövlət qurumlarında onların təmsilçiliyi xeyli sayda artıb. Gənclərimizin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən Azad Rəhimov, son illərdə Azərbaycanda gənclər siyasəti ilə bağlı beynəlxalq tədbirlərin sayının da dəfələrlə artdığını vurğulayıb.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Sədaqət Qəhrəmanova bildirib ki, müasir inteqrasiya, eləcə də davamlı inkişaf prosesində qadınların iştirakçılığının artırılması, bunun üçün mexanizmlərin yaradılması əsas məsələlərdəndir.

Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolu qadınların hüquqlarının müdafiəsi istiqamətində çox mühüm layihələr həyata keçirir, onların iqtisadi, sosial həyatda iştirakının təmin olunmasında, bərabər hüquqlar əldə etməsində xüsusi rol oynayır.

Müasir dövrdə qloballaşma şəraitində dünyanın bir çox, həmçinin ən inkişaf etmiş ölkələrində eyni problemlərə rast gəlinir.

”Qadın istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə mühiti yaradır, vətənə layiqli vətəndaşlar yetişdirir. Ümumiyyətlə, gender bərabərliyinə nail olmaq, qadınların imkanlarını genişləndirmək inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur”-deyən S.Qəhrəmanova Azərbaycan dövlətinin qadın siyasəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

**Sonra tədbir panel iclaslarla öz işini davam etdirib.**

**Nicat Novruzoğlu**

# YƏQİN HƏMİN ERMƏNİLƏRİ GÜL-ÇİÇƏKLƏ RUSİYAYA YOLA SALARIQ

**Tolerant ölkəyik axı. Oxuyuram ki, Rusiya vətəndaşı olan iki erməni əllərini-qollarını sallayıb gəlib çıxıblar Gəncəyə, rahat bir oteldə yerləşiblər, sonra da bir maşına oturub gediblər Çaykəndə, xeyli şəkillər çəkiblər. Camaat şübhələnib tutublar və görüblər ermənidirlər, veriblər hüquq-mühafizə orqanlarına.**

Ermənilər onsuz da Bakını su yoluna döndəriblər. Elə o günlərdə biri gedib Gəncədə qonşularıyla çay-zad içmişdi. Burda hələ iş də tapırlar özlərinə, deyəsən mənzillə də təmin olunurlar.

Yadınızdadırsa bir neçə il bundan əvvəl biri Rusiyadan gəldi Binəqədidə onun evinə yığışan azərbaycanlıları məhkəməyə verdi , bizim ”doblestnıy” məhkəmə də erməninin haqlı çıxartdı, mənzili qaytarıb verdi özünə. O da yəqin kiməsə kirayə verib çıxıb gedib.

Bunları başa düşdük ey, amma bir şeyi başa düşmədik.

Neçə gündür qəzetlər, sosial şəbəkələr, saytlar yazır, hələ heç bir dövlət orqanı bu barədə rəsmi məlumat yaymayıb.

Görünür, hansısa qohumları yüksək vəzifədədi.

Aydın Canıyev



# "Üç Məmmədən... biri Aslan"

## və yaxud Məmməd Aslanla üçlükdə görüşün təəssüratı

**30-40 ilə çatar oxuduğum o yazını: "Üç Məmmədən biri Araz, biri Aslan, biri İsmayıl" - müəllif və dərgi yadıma düşmür! Bəri başdan deyim ki, o yazı, o tipdə yazılar mənə və ümumilikdə bizə ədəbiyyatın nədənini, ədəbi və real şəxsiyyətlərin kimliyini çatdırıb. Mən elə o yazıyla qazandım o üç Məmmədi - burasını da deyim ki, mənim dörd Məmmədim oldu o yazıdan sonra: biri dədəmdi!**

İçimdə, ruhumda, düşüncəmdə, təfəkkürümdə, dünyagörüşümdə yaşayan, yaşayacaq, eyni zamanda, dünya durduqca da bizim Özümüzü, Sözümüzü, Ruhumuzu, Dünyagörüşümüzü, Təfəkkürümüzü ən ali məqamlarda yaşadacaq Məmməd Arazdan ifadə edə bildiyim qədərincə sevgimi izhar etmişəm yazılarımda, növbə... Məmməd Aslanındır!

O yazıdan əxz etdiklərimi deyim:

**a)** əlində qələm olub hökm vermək qədərincə müdrikləşən insan məhz elə "fitva" verməlidir ki, Lənkəran rayonunun Kərgəlan, Laçının Hoçaz, Gədəbəyin İnəkboğan, Bərdənin Kətəlparaq, Lerikin Brkandul kəndindəki oxucu öz Müdriklərini tanısın, sevsin, dəyərini bilsin və... onları qorusun! Hökuməti Binəqədidən o tərəfdə qoysaq da, qoymasaq da, etiraf edək, hər üç imza qorunub, dəyərləndirilib, etiraf olunub! Day o ayrı məsələdir ki, bu mənsəbdə qalmaq üçün bu imzalar nə zülmlərdən keçiblər! İnsan həm də özü özünü qorumalıdır da - cəmiyyət bəzən Dahisinə qəyyumluq etmir! Bacım-Ablam, hər görüşümü Məkkə ziyarəti saydığım Nazlı Ağayevanın sözü olsun: "Böyük adamları kiçik ətraflar öldürər!!!" Bundan əlavə, o yazı mənə - 10-11 yaşlı kənd uşağına

**b)** çox böyük sevgi, müdriklik aşıladı, illərlə davam edən "diskriminasiya"ya son qoydurdu. Diqqəti müəllifin möhtəşəm yazmağına yozmayın, müəllifin bəxti gətirmişdi elə Dahilərin yaradıcılığına üz tutmaqda - təqdim etdiyi Dahilərin yaradıcılığındakı ilmələr idi o düyünü açdıran!

Deməli, belə... bu 50 ildə dədəmdən başqa bir kişidən görmədim ki, oğlunu göz dağı etməsin, oğluna bütün bəşəri, mənəvi, kriminal, əxlaqi-etik, əlqərəz, mümkün olan qadağaları tətbiq etsin, səhvlərini bağışlamasın, cəzadan azad etdirməsin... "Bildiniz də nə deyirəm?", hətta Heydər Əliyev də! Hamı öz oğlunu müqəddəs, bağışlanan, düşmən çəpəri, nə bilim, nə fıstrinkə bilir! Həqiqətdə isə...

Atamın sərt davranışından "Həyatımın zəhəri - Atam" yazısında yazmışam, bir ştrixi də əlavə edim: bütün ömrüm boyu həsrət qaldım ki, Atam uğurlarıma "sağ ol" desin, tərfiləsin! Hər dəfə bir uğurumu çatdıranda mütləq bir misalı olardı ki, bu, hələ qələbə deyil: "Səndən qabaq və sən yaşda..." Misal üçün, "Cücələrim"i yazan "Tofiq Mütəllibov 14 yaşında SSRİ Yazıçılar Birliyinin üzvü olub, bir dənə yoluq inşa yazıb "5" alıbsan, buna "sağ ol" istəyirsən" tipində...

Növbəti elə "zəhərləmə resepti" tətbiq olunanda həmin o "Üç Məmmədən biri..." yazısını Atama verib oxutdurdum, dedim: "O üç Məmmədin hər biri sən yaşda olanda..."

Doğrusu, Atamın dediyi və Atama dediyim bu gün də dəqiq yadımdadı:

- Aydın, sən ki, ağvalideyn olmaq xislətindən uzaqsan, niyə səni böyük görmək, böyük böyütmək istəyimi əzilmək kimi qəbul edirsən?

- Böyük böyüyürlər, böyük böyütmürlər, ona görə oxutdum ki, bu həyatda mənim on(lar)dan heç vaxt böyük olmayacağım insanlar var, özünü və məni kosmosa hazırlama da, görmə də!

Adamlar Məmməd Araz, Məmməd Aslan, Məmməd İsmayıl yaşayan dünyada oğullarını kosmosda görürlər - layiq olmadıqlarını bildikləri halda! Layiqdilərsə, əlbəttə, görsünlər, layiq deyillər, axı...

Və... **v)** hər üç nəhəngi həyatda gördüm, zövq aldım - özlərindən, yazdıqlarından, insan kimi son mənzilədən Kişi kimi yaşamaqlarından! Allah birinci və ikinci Məmmədə rəhmət eləsin, üçüncü Məmmədə cansağlığı versin!

Həə, gələk xislət söhbətinə - hər üç Məmmədin imzası nəinki Əsrarəngiz Böyük Söz Səltənətinin möhtəşəmlikləri altından çıxır, hələ ən parlaq ədəbi ulduzların da bu üçünün hər əlinin hərəsinin başında bir əlinin sığalı var! Məmməd İsmayıl bəyənməyəndə, Məmməd Aslan bəyənib, Məmməd Aslan dağ başına çıxara bilməyəndə Məmməd Araz çiyin verib. Bu günəcən oxumamışam da, eşitməmişəm də, inanmıram da ki, üç Məmmədin xeyirxah xislətindən başqa nəsə yanlışı olsun - ola bilər, ovqat və zamanla bağlı "nəsə" anlaşılmazlıq olsun, bunu "baydağ" eləmək də bir kişilik deyil! Bu yaxınlarda üç xeyirxah insanımız haqda üç tanıdığım tanınan imzanın giley-güzar dolu yazılarını oxudum - sən demə, bunlar çox nəhəng bir "şey" olacaqmış, filankəs filan sözü deyib, filankəs filan arayışı verməyib, filankəs maaşını kəsib!

Bu Məmmədin yazısına dəstəyi o Məmmədə dediyimlə verim: mənim əziz oxucularım, dostlar hər zaman şahiddir ki, aradabir "tupoy" suallarım olur - bəzən eləsi olur ki, ağzı açıla qalır, "o Aydın Aydın deyirlər, o bu oğlandır, odu bunu yazan?" Bax, heylə...

1985-ci ilin sonlarıdır, yığışmışıq S.M.Kirov adına ADU-nun akt zalına (arada Məmməd Əmin Rəsulzadə, indi heç kimin adına olan BDU), Məmməd İsmayıl döşəyir e. İndi tələbələr də canlı-canlı üzüzədir xalqın və zamanın möhtərəm şairi ilə, hərə bir cür özünü göstərir.

"Tupoy" damarım tutdu nə tutdu, o vaxtı kənddə mənə danışılan lətifədəki sualı verdim, həm də kobudlasaydı, əlimdə hazır arqumentim vardı: səhər tezdən dərsdə Famil Mehdi "Pravda" qəzetində yenidənqurma, sürətləndirmə haqqında baş məqalədən danışmışdı, ölkədə islahatların ciddi olacağının bəyanını çatdırmışdı:

- Ay Məmməd müəllim, bu zaman bizi hara aparır, nə olacaq bu yenidənqurmanın axırı, sürətləndirilən işlərin sonu?

Məmməd müəllim başına döndüyüm də qayıdasan ki, ay bala, nə olasıdı, indi payızdı, sonra qış olacaq, ardınca yaz, ondan sonra da çıxacağıq yaya!

İndi öz aramızdır, bu sualdan iki il ötdü, ölkənin ən qiyamçı jurnalını buraxdı Məmməd İsmayıl, dəyişikliklərə gətirib çıxaran, dövlət quruluşunu məhv edən bir mübarizənin içində oldu, neyləyəydim, durub yazaydım, ya da yaxasından tutaydım ki, kişi, bəs deyirdin indi payızdı, qış olacaq, ardınca yaz gələcək, ordan da yaya çıxacağıq, ölkə dağıldı, təkcə vayqırğın fəsli oldu, o sürətləndirmə də bizi müstəmləkə əsarətindən... klan köləliyinə gətirdi ki?!

Məxləs, özünün böyük olduğunu düşünən insanların xırda detallar üstündə qalibiyyət təranəsi və məğlubiyyət mərsiyələri səsləndirməsi çox düşük bir çaba - qısaca izahını verirəm: Məmməd Araz da, Məmməd Aslan da, Məmməd İsmayıl da şair kimi ortaya çıxanda Rəsul Rza AYB sədri idi, Anar AYB sədri oldu... (hələ İbrahimov Mirzə, Süleyman Rüstəm və b. bir yana qalsın) heç biri də Məmməd Arazın zirvədə olmasına, Məmməd Aslanın dərələrdən-təpələrdən keçib Ərzurumun gədiyinə varmasına, Məmməd İsmayılın Türklük sevdasına "nəsə" edə bilmədi! - "Ploxomu tantsoru yaytsa meşayet"

Xislət işıqlı olmalıdır: dünən cavan olanda Sorokinin diliylə qocalara, bu gün artıq qocalığa adlayanda (Orxan) Saffarinin diliylə cavanlara ölüm çağırışına meydan verirsənsə, istəyirsən təkcə Fransada yox e, külli Avropada, Amerikada çap olun, nə yazdıqlarından nümunə götürəcəklər, nə də şəxsiyyətindən! Dünən Anara oğraş, Əkrəmə kişi, bu gün Anara kişi, Əkrəmə oğraş yazmaq da həmçinin! Yazıçı-şair xisləti belə olmamalıdır, belədirsə belə, özünə hakim olub gizlətməlisən, özünü tərbiyələndirməlisən! Yaxşı və işıqlı nə varsa, təbliğ, təşviq, təqdir eləməlisən!

Durduğun yerdə özünə sərf edən formada əvvəl qocalığa, sonra gəncliyə ölüm arzulamaq, belə mətnlərə meydan vermək, belə mətnləri özünə rəva görmək, mütləq hədəfdə ikisini saxlayıb birinə kişi, birinə oğraş demək, eləcə də "xəlqi qəmkeş Zeynəb"lik edib nəslinin-tayfanın bütün qız-gəlinlərini yazdığın gic-gic statuslarda söydürüb sakitləşmək nə ədəbi fədailikdir, nə həyati! Heç manyaklıq da deyil - sadəcə, bəzi növ qadınlar var, onları həftədə bir dəfə xurd-xəşil olunca döyməsən, sümükləri sızıldayır, yeddi arxa dönənini söyməsən, qulaqları uğuldayır, bax, odur!

Həyatda biqeyrətləşmə gedir - ədəbiyyatda heç olmasa belə olmamalıydı. Təəssüf ki, biqeyrətləşmə elə birinci ədəbi qəhrəmanlardan başladı, sonra da yazanlar başladı öz "qəh...rəman"larına oxşamağa. Ki... sübut etsinlər: necə də əndazəsiz və nəhəngdirlər, onların "qəh...rəman"ları reallığa çevrilir.

Yaxşı, yaxşı, başa düşdüm, deyəcəksiniz sən Məmməd Aslandan yazırsan, ya ədəbi icmaldı, yainki də elə 40 il qabaq yazılmış "Üç Məmmədən biri..." yazısında ilişib qalmısan? Deməyim bu: BÖYÜK OLMAQ ÜÇÜN böyük insanların böyüklüyünü etiraf və qəbul edirsən, sonra da onları qoruyursan. Məmməd Aslan kimi, böyük imzaların əhatəsində, eləcə də böyük düşmənlərlə mübarizədə tarazlığını saxlayır, müvazinətini itirmir və mətn yazıb ortaya qoyursan! Hələ mətn yazmaqla da iş bitmir!

Sonra o mətnin sahibinin şərəf və ləyaqətini qoruyursan! - qoymursan satılsın, sınsın, cındırlaşsın! Məhəlliləşmirsən, millilləşirsən, ondan sonra beynəlmilli olursan. Məqsədin milliliyi beynəlmilli etmək olur. Beynəlmilli olana boyun əymirsən - ölkən kimi, iqtidarın kimi! Soxuşdurmursan "qlobal, bəşəri Avropa, Amerika" dəyərlərini. Sonacan özün qalırsan... ta o vaxtacan ki, özünü soxuşdurursan o "bəşəri, qlobal Avropa, Amerika"ya.

Özgürlüyün özəti, nədəni bu: sovetləşmədən canını qurtardın, day onda niyə qərbləşməyə can atırsan ki? Nə fərqi var ki, heç bir halda özün deyilsənsə? Balacasan, miskinsən, acizsən, gücsüzsən? Otur, ara yollarını böyüməyinin, böyük olmağının, başını işlət, dlini zəhər tuluğuna döndərib xəstə beyninin xəbis ürəyindən qaynaqlanan iyrənc iddialarına meydan vermə!

Bax, bunu nümayiş etdirmişdi Məmməd Aslan - 15 sovet resublikasının tərkibində 100 millətin içində! İki klanın, beş rayonun əlində girinc qalmısan e, məğmının balası! Məmməd Aslan, Məmməd Araz, Məmməd İsmayıl, elə Məmməd olmayan Əkrəm də böyüklərin içində böyük idilər!

Hərənizin iki-üç şeiri (ya da bir-iki hekayəsi) var (dəqiqdir də ki, ondan artıq deyil), müstəqil Azərbaycan sizə dar gəlir və... getdikcə kiçilir, cılızlaşırsınız! Bu boyda nəhəng kişilər bir vaxtda, bir zamanda, bir düşmənin əlinin altında bu boyda böyük qalıblar!

Məmməd müəllimlə necə dostlaşmağımı yazmışam, bu yazıda təkrar eləmək istəmirəm - kitab variantında birləşdirəcəm. Amma eynən mənə qarşı göstərdiyi diqqəti başqa istedad yiyələrinə də etdiyini çatdırmaqla bu insanın necə bir söz və istedad sevdalısı, dil və türklük təşnəsi olduğunu çatdırmaq istəyirəm - milli qürur kişisi olaraq, Məmməd Aslan hər zaman nüfuzunu istedadın və ləyaqətin tərənnümünə sərf edib. Təəssüflər olsun ki, içi özümqarışıq, çox az-az xatırlayırıq.

Bizi heç zaman tək qoymayan Məmməd Aslanı xatırlamamaq, yazmamaq nankorluq olar, əlbəttə ki.

... Ömrünün son günləriydi, Əlövsət müəllimlə rastlaşdıq. Məmməd müəlimi soruşdum, müalicə aldığını, onun yanında olduğunu söylədi, imkan yaranan kimi görüşəcəyimizi vədələşdik.

Sonra mən, hər zaman olduğu kimi, dalımca qarabaqara düşən sərgüzəştlərin burulğanında itdim, həmişə üçümüz görüşdüyümüz Məmməd Aslanla bu dəfə alınmadı.

Görün nə qədər çəkdi, neçə il keçdi... görüşməməyimizdən! Məmməd Aslanın, elə Məmməd Arazın da, qəbrinin üstündə olan görüş belə canlı alınır - o qədər ruhu-xatirəsi yaddaşda diri yaşayıblar!

Dostluqda, yoldaşlıqda, əxlaqda, böyüklükdə, kişilikdə böyük Əlövsət müəllimlə bu dəfə Moskvadan qayıdanda zəngləşdik. Əlbəttə ki, Məmməd müəllimi xatırladıq, Məmməd müəllimlə görüşmək, onu ziyarət etmək istədiyimi sözarası dedim. Özünün işləri başından aşan, əziz adamı xəstəxanada əməliyyat olunan Əlövsət müəllim qaşla-göz arasında Məmməd müəllimi birgə ziyarət etməyimiz üçün vaxt tapdı. Hər zaman hər şeyi vaxtında və yerində edən Əlövsət müəllimin özünə dedim, sizə də ona dediyimi çatdırıram:

- Ağsaqqal, siz dostluqda, yoldaşlıqda, əxlaqda, kişilikdə böyük insansınız, buna dəfələrlə yox e, illərlə, bir ömür boyu şahidik, amma rəhmətə gedən şair-yazıçı dostları haqqında danışanların içində ilk dəfədir bu qədər illər keçəndən sonra da adı gələndə kövrələn, görüşünə-ziyarətinə diriymiş kimi hazır olan insan görürəm! Oğlunuz yaşda adamın istəyinə belə bu qədər həssas olmağı ancaq elə Məmməd Aslanı ürəkdən sevən insan bacarar!

Bu qəbirüstü ziyarətdən çox, həm də hesabat idi: Məmməd Aslan - Dədə Məmməd, arxayın ol ki, bizim üçün saxlayıb, özünün gedib başına vardığın yoldan dönməmişik!

... Biz indi üçümüz də bir yerdəydik. Həmişə bizə şeir oxuyan, dərs keçən, örnək olan Məmməd Aslan - Dədə Məmməd indi bizə baxırdı, görək, biz nə deyib gəlmişik. Nə deyəsiydik. "Yasin" oxunurdu, fatihə... verirdik... bəziləri arvadlarını-qızlarını rahat boşadığı kimi, bu dünyanı sağlığında boş(l)ayan, əlinin dalını yelləyən, əlini gözünə günlük eləyib dünyaya "hə, nə oldu, bəs deyirdin məndən qalib gedən olmayıb" deyən, Sözün, Kişiliyin Fatehi Məmməd Aslana! Dünyadan qalib gedən Məmməd Aslana.

**... Baxma hər yazdığım dastan olmadı,**
**Qələm toy-düyündən, yasdan olmadı.**
**Qəm etmə ki, Məmməd Aslan olmadı, -**
**Axtarsan, taparsan varaq üstündə!**

Həə, varaq üstündə Aslan olan Məmmədi tapmaq ola bilsin ki, bir az çətin olar, çünki indi söz-ədəb hakimliyi dövrü deyil, həm də Məmməd Aslanın baş redaktoru olduğu "Ekran-efir" qəzetində indi ekran-efiri bayağı şoular, açıq sinələr, göbəklər, yarıq paçalar bəzəyir... ancaq tapmaq istəyən, ən azından, məzarını... M...asazırda tapa bilər, halbuki onun məzarı M...urovun ən uca nöqtəsindən boylanmalıydı!

Əgər gələcəkdə nəfəsim yalnız bir qəbri ziyarət etməyə çatarsa, mən dədəM Məmmədlə Dədə Məmməd arasında seçim etməyə məhkum olsam, Dədə Məmmədi seçərdim!

# Şahlar şahı Qacarın darmadağın etdiyi şəhər

## Tiflisdən reportaj

Tez-tez müdirim Aqil Abbas məndən yazı istəyəndə deyirdim:

**- Aqil müəllim, maraqlı yazılar üçün gəzmək lazımdır.**

Aqil müəllim də axırda qayıtdı ki, səni Trabzona göndərirəm, get, gəz, yazılar yaz. Razılaşdım, amma sonra fikrimi dəyişdim. Gürcüstanı seçdim. Əslində tək getmək istəyirdim, biletimi də almışdım, amma sonra yad bir ölkəyə getdiyimi düşünüb, düşünüb qərar verdim ki, turla gedim. Elə bir tur seçdim ki, həm öz arzuma çatım, həm də Aqil müəllimin sözü yerə düşməsin.Tiflis-Batumi-Trabzon turuna bilet aldım. Bir güllə ilə iki quş vurum da. Trabzona gedişimə əsas səbəb isə Lalə xanım oldu. Mənim ikinci anam. Onların dəstəyi sayəsində ürəkləndim.

Axşam saat 7-də Gənclikdəki Atatürk parkındayam. Avtobusumuzu tapdım. Sürücüdən başqa heç kim yox idi. Açığı avtobusu görüb dilxor olmuşdum. Nəsə rahat avtobusa oxşamırdı. Öyrənəndə ki, internet də olmayacaq, əllərimi başıma çırpdım. Axı tur rəhbərliyi belə deməmişdi. Məndən sonra gələn hamı dilxor olmuşdu. Tur bələdçilərinə yaxınlaşırdılar, narazılıq edirdilər. Nəhayət mən də imkan tapdım.

**- Qardaş, bizə belə deməmişdilər axı. Avtovağzalın avtobusları bundan yaxşıdı.**

**- Sizə deyiblər axı...**

**- Deməyiblər...**

Deməli, müxtəlif şirkətlər birləşib bir avtobus tutublar. Mövsümün sonudur deyə. Amma bələdçilər ümumidir. Dedim:

**- Bax ha, mən jurnalistəm, yazı-pozu adamıyam.**

**- Harda işləyirsən?**

**- ”Ədalət qəzetində.**

Oğlan əllərini başına çırpıb ”uydaa, mən getmirəm, qardaş” deyib zarafatlaşdı. ”Sən bizi biabır edəcəksən yazı yazıb” deyib güldü.

Qısası geri yol yoxdur. Hərə öz yerini tutdu. Yanımda Batumiyə çatana qədər adını bilmədiyim qardaş oturub. Nəsə axır zamanlar pis vərdişim yaranıb. Bəzən tanış olduğum adamların adını da soruşmuram.

Düz sərhəddə qədər onunla münasibətimiz əla oldu. Yolboyu mənə getdiyi yerlərdən danışdı, xüsusilə də mindiyi rahat avtobuslardan.

Tur rəhbərləri gördü ki, artıq hamı yatışır, mikrofonu işə saldılar:

**- Yola çıxmazdan əvvəl yatmamısız?**

Danışan bələdçi Vüsaldı.

**- Oyunumuz var. İki dəqiqə ərzində sual verəcəyik, ”hə, yox, bəli, xeyr” deyə cavab verməməlisiz. Qalibə hədiyyəmiz var. Qaliblər Batumidə yaxta gəzintisinə verəcəyi 15 laridən azad olacaq.**

Bələdçilər bu oyunda verilən suallar sayəsində həm bizi tanıdılar, həm də bizi bir-birimizə tanıtdılar. Mənim adımı da ”jurnalist” qoydular.

Kürdəmirdə dayandıq. Çay içdik. Ağcaqanadlar da bizim qanımızı. Adını bilmədiyim oturacaq yoldaşım qaşına-qaşına qalmışdı. Qırxdan çox adamın içində bircə mən və Həsən adlı oğlan tək gəlmişdi. Qalan hamı ailəsi ilə, bacısı, qardaşı, dostu ilə. Hətta yenicə evlənmiş cütlük də var idi.

### *Yol və sərhəd qeydi*

Biz sərhəddə çatanda gecə saat dörd olardı. Sakitlik idi. Avtobus ayrıca, adamlar ayrıca keçməlidir yoxlanışdan. Sürücümüz Zöhrab dayı belə dedi.

Veş-vüşümüzü götürüb daxil olduq məntəqəyə. Sıra mənə çatdı. Yaxınlaşdım. Şüşənin arxasındakı oğlana pasportumu təqdim elədim. İçimdə qəribə həyəcan var idi. Oğlan bir pasporta baxdı, bir də mənə. Dedi ki, sən də kameraya bax. Baxdım, möhürü pasporta vurdu.

Bizimlə gələn İranlı qadını və özbəkləri isə saxlamışdılar. Sənəd-sünədlərində problem yaranmışdı.

Veşlərimizi də yoxlanışdan keçirəndən sonra uzun, dar bir keçidə daxil olduq. Gürcüstan sərhəddinə az qalıb. Həyəcan mənimlə birgə yürüyür. Məntəqəyə çatar-çatmaz itlər hürüşməyə başladı. Mənə demişdilər də burda itlər çoxdur. Gürcülərdə isə proses bizimkindən də qısa oldu. Vəsiqəmi aldı, möhürünü vurdu, keçdik. Və mən ilk dəfə Azərbaycandan kənara addım atırdım. Bu hissləri izah etmək çətindir. Çox xoşbəxt idim. Bir az sonra gürcücə danışan insanları görüb şükür elədim ki, tək gəlməmişəm. Yanımda özümüzkülər var.

İranlı qadın da, özbəklər də gəldi.

Tur bələdçiləri tapşırdılar ki, Gürcüstana keçən kimi pul çevirənlər yaxınlaşacaq sizə. Nəbadə yaxın durasınız. Biz sizə lazım bildiyimiz yerdə deyəcəyik, düşüb pullarınızı lariyə çevirərsiniz.

### *Səhər saat 7:00*

Pullarımızı lariyə çevirmək üçün valyuta məntəqəsində dayandıq. Məntəqə yolun düz kənarındadır. İtlər Tiflisin girişində gəlib-gedən maşınları qarşılayırlar. Özü də elə-belə yox. İki it xüsusən canfəşanlıq edir. Biri gedən, biri də gələn maşınları gözləyir. Yanlarından keçən kimi arxasınca qaçıb hürürlər, sonra yenə geri qayıdırlar.

Yoldaşlardan biri dedi:

**- Bu itlər deyəsən ölümlərini axtarırlar.**

Pullarımızı lariyə çevirdik. Yavaş-yavaş şəhərə daxil oluruq.

Eşitdiyimə görə ”tifli su”, yəni isti su anlamına gəlir şəhərin adı. Rəvayətə görə, Gürcüstan dövlətinin banilərindən biri I Vaxtanq Qorqasali bir gün bu yerlərdə qırqovul ovuna çıxıb. Kralın təlim keçmiş şahini dərhal oxla yaralanmış quşun başının üstünü alıb və bir-biri ilə çarpışarkən hər iki quş yaxınlıqdakı qaynar bulağa düşərək həlak



olub. Yerin altından qaynayaraq çıxan çoxsaylı termal bulaqlar hökmdarda elə güclü təəssürat oyadıb ki, o, meşəni qıraraq burada şəhər salmaq əmrini verib

Köhnə şəhər (gürcülər Abanotubani deyirlər, yəni gürcücə ”abano” ”hamam”, ”ubani” ”rayon” deməkdir) hamam bölgəsidir. Kükürdlü və termal sular orada üstünlük təşkil edir. Kükürd hamamlarının suyunun müalicəvi əhəmiyyəti var, deyirlər. Hamamlar Tiflisin ”Müsəlman məhəlləsi” yaxud da ”Meydan” kimi tanınan bölgəsində, ”Heydər Əliyev parkı”nın yanında yerləşir, Azərbaycan səfirliyi də oradan təxminən 5 dəqiqəlik məsafədədir. Amma nədənsə bizimkilər gözümə dəymədi. Gəlməzdən öncə düşünürdüm ki, yəqin bu parkda bizimkilər çox olar. Bəlkə də biz səhər çatmışdıq deyə hələ heç kim yuxudan ayılmamışdı.

Gürcüstanın bir qism şəhərlərinin adını qazısan, altından biz çıxarıq. Bakı-Tbilisi- Ceyhan xəttinin üzərindəyik də. Köhnə qədimliklə müasirliyi sintez edib gürcülər. Həmişə sevdiyim bircə şey olub - şəhərin içindən çay keçsin. Gürcülərin bəxti gətirib ki, bizim Kür çayı onların paytaxtının içindən keçir. Şəhərə elə gözəl mənzərə bəxş edib ki, adam saatlarla çayın kənarındaca donub qalmaq istəyir. Qırmızı damları olan evlər, daşla döşənilmiş yollar, çoxlu kilsələr, monastrlar, addımbaşı hostellər, otellər...

Sanki yapışdırılmış taxta eyvanları olan gözəl və qədim binalar diqqəti cəlb edir. Sən demə, bu eyvanlar həqiqətən də sonralar sakinlərin təşəbbüsü ilə tikililərə əlavə edilib. Bir çoxlarının yüz-iki yüz, bəzilərinin isə hətta üç yüz il yaşı olan bu evlər əvvəllər eyvansız olub. Köhnə Tbilisi dağlıq ərazidə yerləşir və buradakı binaların çoxu təpələrin yamaclarında, bəziləri isə sərt qayalıqlarda inşa edilib. Evlər arasındakı dar küçələrin bəziləri nəzərəçarpacaq dərəcədə meyillidir. Çayın üzərindəki körpülərin tarixi qədimdir. Sanki şəhərin mərkəzində deyil, təbii qoruqdasan. Hava xoşdur. Bələdçimiz bizə Tiflisin ən məşhur yerləri haqqında məlumat verir. Gözlərimiz şəhərin gözəlliyinə ilişib qalıb. Köhnəşəhərlə yeni şəhəri birləşdirən müasir dizaynı olan körpü Kür çayının üstündən keçir. Stalin gürcü olmasaydı görəsən necə olardı? Axı onun dövründə Tiflisə göstərilən qayğı daha çox olub.

Bir də buranın bu qədər inkişaf etməsini Saakaşviliylə əlaqələndirirlər. Saakaşvili hökuməti salınan yeni yollar və tikilən binalar ilə fəxr edirdi. O, yeni obyektlərin açılış mərasimində iştirak etməyi xoşlayırdı. Saakaşvili bir sıra memarlıq yeniliklərinin təşəbbüskarı olmuşdu. Tbilisi, Batumi və Gürcüstanın digər şəhərlərində bu cür ”inqilabi” memarlıq siyasəti heç də hamının ürəyincə deyildi. Tbilisinin tarixi hissəsində Kür çayı üzərindən qurulmuş müasir görünüşlü ”Sülh” körpüsü də çoxlu sayda sakinlərin tənqid və etirazına səbəb olmuşdu.

Burada qarşımıza çıxan benzindoldurma məntəqələrinin çoxusu SOCAR-ındır. Bizim neftimizlə şellənirlər.

Buralardakı monastrlar, kilsələr şəhər əhalisinin dinə çox bağlı olduğunu göstərir. Bunu həm də şəhərdəki dilənçilərin çoxluğundan hiss elədim. Bu dilənçilər sırf dindarların verdikləri pulların hesabına dolanır. Mənsə, dilənçilərə deyəcək bircə söz bilirəm - Qamar coba!

Batumidə balaca bir uşaq çıxacaq qarşıma. Uşaq o qədər şirin olacaq ki, özümü tuta bilməyəcəm. Dillərini də bilmirəm. Uşaq nə bilsin ki, mən ”A bucu bucu” deyəndə nə demək istəyəcəm?! Uşağı qoxlayacam, amma uşaq qoxusu hiss eləməyəcəm. Bir az çaxır qoxusu gələcək uşaqdan. Biruzə verməndən uşağı anasına qaytarıb dəstəmizə qoşulacam.

Gürcüstanın anası deyilən ”Kartlis Deda” heykəli görünür. Onların Narikala, bizim Narınqala dediyimiz kilsənin yanında yerləşir. Bir əlində şərab, bir əlində qılınc olan bu qadın heykəlini yadıma salıb uşaqdan gələn çaxır qoxusunu çözəcəm.

Mən turla gəldiyim üçün Tiflislə ötəri tanış oldum. Amma mənə bəxş elədiyi vizual ab-hava videolardan gördüyümdən də gözəl oldu. İnsanlar Tiflisin turistikliyindən gen-bol istifadə ediblər. Heç işləməklərinə ehtiyac yoxdur. Burada adamlar var ki, evində, otağında yatmadığı çarpayısını da kirayəyə verir. Bir də ən əsası, burada rus dilində yazılara çox nadir rast gəlmək olur.

Gürcüstanda kazinoların fəaliyyətinə icazə verilib. Özü də Tiflisin düz mərkəzində fəaliyyət göstərirlər və hər addımbaşı rastımıza çıxırlar. Və ən maraqlısı - Gürcüstanda marixuana çəkmək, satmaq qadağan deyil. Bu sərbəstlikdə bizim qarşımıza bir nəfər də olsun ”hallı” adam çıxmadı.

Hələ ki Gürcüstanla bağlı təəssüratlarım gözəl olsa da, gürcülərlə bağlı elə bir təəssüratım yoxdur. Bu gördüklərim cəmi-cümü 1 saatlıq Tiflis gəzintisinin təəssüratlarıdır. Növbəti dayancağımız Batumi olacaq. Batumiyə isə hələ beş saatlıq yol var. Gah yatırıq, gah oyanıb hansısa mahnıya oynayırıq, şənlənirik.

### *Zestaponidə səhər yeməyi*

Üç il əvvəl yarımçıq qalmış arzum idi buraları görmək. Batumiyə çatmamış Zestaponi deyilən qəsəbədə səhər yeməyinə dayandıq. İki dilim pendir, bir yumurta, bir stəkan çay, bir az da çörək götürdüm. 4 lari də pul verdim. Kafedən çıxanda hamı şikayətlənirdi qiymətlərdən. Tur rəhbəri dedi ki, səhər saatları olduğu üçün yol qırağı açıq olan yeganə kafe buradır. Mənim jurnalist olduğumu bilirdilər. Narazılıq olan kimi ”jurnalist, yaz ha bunları” deyib gülürdülər.

Gürcülərlə bağlı ilk təəssüratım bu kafedə yarandı - soyuq millətdirlər. Qarşıda isə hələ nə qədər vaxt var, görək necə olur?!

Özbək yoldaşlarımız da var idi. Onlarınsa qiymət heç veclərinə də deyildi. Özləri ilə ev üsulu çəkilmə çaxır gətirmişdilər və hamını qonaq edirdilər. Boğazımızı üç qurtum çaxırla yandırdıq, avtobusa doluşduq...

(ardı növbəti sayımızda)

**Eminquey**

# MƏNZİL BAŞINA SALAMAT ÇATMAQ İSTƏYİRSİNİZSƏ...

## Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov bizimlə söhbətində bu fikri xüsusilə səsləndirdi

**- Cənab polkovnik, xeyli vaxtdır ki, sizinlə görüşmürük. Daha doğrusu, həm sizin başınız qarışıq olub, həm də bizim. Nə var, nə yox? İşləriniz necədir?**

- Onu düz deyirsiniz ki, mənim başım həmişə qarışıq olur. Bu da iş-güclə bağlıdır. Bir tərəfdən təbliğat işlərinin aparılması, televiziya və mətbuatda çıxışlarımız, digər tərəfdən də keçirilən reydlərin davamlı olaraq gerçəkləşdirilməsi təbii ki, bizdə zaman qıtlığı yaradır. Siz zəng vuranda başım çox qarışıq idi. Amma gördüm ki, sizsiniz, o dəqiqə telefonu açdım. Bilirəm ki, "Ədalət" qəzeti həmişə yol polisinin işinə çiyin verir, bizim reyd və yoxlamalarda yaxından iştirak edir. Şükürlər olsun ki, işlərimiz də öz qaydasında gedir...

**- Bunu necə başa düşmək olar?**

- Çox sadəcə, yəni, yol polisinin başlıca vəzifəsi hərəkətin təhlükəsizliyini təmin etmək, hərəkət iştirakçılarını mənzil başına sağ-salamat çatmasına kömək göstərməkdir. Aydındır ki, bu işi də icra etmək hər bir yol polisindən və hərəkət iştirakçısından yüksək məsuliyyət tələb edir. Əgər bir yerdə ki, məsuliyyət var, deməli, orda həm də müsbət nəticələr olacaq.

**- Cənab polkovnik, müsbət nəticə dediniz, yadıma yol-qəza hadisələri düşdü. Maraqlıdır, bu gün Bakı şəhərində yol-qəza hadisələri artıb, yoxsa azalıb?**

- Maraqlı suala görə, təşəkkürümü bildirirəm. Bir faktı deyə bilərəm ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində əvvəlki vaxtlarla müqayisədə yol-nəqliyyat hadisələrinin sayı azalıb, ölüm və xəsarətalma halları aşağı enib. Bu ona dəlalət edir ki, hər bir yol polisi öz üzərinə düşən vəzifə məsuliyyətini dərindən dərk edir və növbə ərzində qarşıya qoyulmuş vəzifəni yerinə yetirməyə çalışır...

**- Siz yol-nəqliyyat hadisələrinin azalmasından, ölüm və xəsarətalma hallarının aşağı enməsindən söhbət açdınız. Bax, bu müsbət nəticələrə hansı addımlar atılmaqla nail olunub?**

- Öncə onu qeyd edim ki, sutkanın 24 saatı yol polisi yüksək məsuliyyətlə çalışır. Bir qayda olaraq Bakının küçə və prospektlərində hərəkətin təhlükəsizliyi maksimum səviyyədə təmin edilir. Səhər və axşam saatlarında tıxaclar yarandığı yerlərə əlavə naryadlar göndərilir, yol polisləri avtomobillərin hərəkətini tənzimləyirlər. Xüsusən yağışlı və yağmurlu havalarda hərəkətin yüksək sürətli olduğu prospektlərdə sürət həddi aşağı endirilir və nəqliyyat vasitələrinin hərəkəti diqqət mərkəzində saxlanılır. Yəni mövcud qəza şəraitləri yol polisinin köməkliyi ilə aradan qaldırılır. Üstəlik də mütəmadi olaraq həm sürücülər, həm də hərəkət iştirakçıları ilə bağlı reydlər təşkil edilir. Piyadaların yerüstü və yeraltı keçidlərdən istifadə etməsi xüsusilə diqqət mərkəzində olur. Təbii ki, "Yol hərəkəti haqqında" Qanunu pozanlar İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə məsuliyyətə cəlb edilir və onlar barəsində inzibati protokol tərtib edilməsi önə çəkilir...

**- Yəqin ki, inzibati tədbirlərlə yanaşı, hərəkət iştirakçılarının maarifləndirilməsi məsələsi də diqqət mərkəzində olur...**

- Heç şübhəsiz! Çünki bizim əsas məqsədimiz baş verə biləcək qəzaların qarşısını almaqdır. Bunu həm inzibati, həm də maarifləndirmə yolu ilə həll edirik. Bilmirəm siz fikir vermisiniz, ya yox, reyd və yoxlamalar zamanı həm sürücüləri, həm də piyadaları inzibati qaydada cəzalandırmaqla yanaşı, onları maarifləndirməyi də ön plana çəkirik. Bu reydlərdə sizin özünüz də dəfələrlə iştirak etmisiniz. Görmüsünüz ki, inzibati yolla cərimə edilən hərəkət iştirakçıları ilə yanaşı, maarifləndirmə tədbiri ilə qanunu pozanlar da diqqət mərkəzində saxlanılır. Aydındır ki, bu da qəzaların qarşısının alınmasında öz sözünü deyib.



**- Sentyabrın 16-sı bütün ümumtəhsil və ali məktəblərdə dərs ilinin başlanmasına start veriləcək. Bu məqsədlə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi hansı qabaqlayıcı tədbirlər gerçəkləşdirir? Sirr deyil ki, həmi günü orta və ali məktəblərin yaxınlığından keçən küçə və prospektlərdə bir sıxlıq yaranır...**

- Çox yaralı və mühüm bir məsələyə toxundunuz. Hər il sentyabrda dərs başlananda biz mütəmadi olaraq hələ öncədən hərəkət iştirakcıları arasında təbliğat, təşviqat və maarifləndirmə işləri aparırıq. Sürücülərlə və hərəkət iştirakçıları ilə söhbətlərimiz olur.

Bu dəfə də öncədən cəmiyyət arasında bu söhbətləri aparmışıq. Çünki bir qayda olaraq yeni dərs ili başlananda bir çox sürücülər təhsil müəssisələrinə yaxın yollarda, küçələrdə, prospektlərdə tıxaclar yaradır, "dayanma" və "durma" qaydalarını pozur və nəticədə tıxaclar yaranır. Bunun qarşısını almaq üçün biz Bakı Şəhər Nəqliyyat Agentliyi ilə birlikdə həmin gün böyük tədbirlər planı həyata keçirəcəyik. Təbii ki, bu qabaqlayıcı tədbirlər həmin gün şəhərimizdə mövcud problemlərin yaranmasını aradan qaldıracaq və digər çətinliklərin baş qaldırmasına imkan verməyəcəkdir.

**- Sizin Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birlikdə həmişə hərəkətin təhlükəsizliyi ilə bağlı böyük tədbirlər planınız olur. Təbii ki, bu plan ilk növbədə hərəkət iştirakçılarından biri olan məktəblilərin təhlükəsizliyinin təmin edilməsinə yönəlib...**

- Bu çox mühüm bir məsələdir. Çünki məktəblilərin il boyu hərəkətin təhlükəsizliyi ilə bağlı maarifləndirilməsi həm Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin, həm də Təhsil İdarəsinin prioritet vəzifəsidir. Bu o deməkdir ki, 1-ci sinifdən tutmuş, 11-ci sinifə qədər bütün şagirdlər yol hərəkəti qaydalarını öyrənməli və əməl etməlidir. Və hər il biz birlikdə "Diqqət, uşaqlar!" təhlükəsizlik aylığı keçiririk. Həmin təhlükəsizlik aylığı zamanı əməkdaşlarımız Bakının uşaq bağçalarında, ümumtəhsil məktəblərində olur, onlara yol hərəkəti qaydalarına əməl etməklə bağlı öz tövsiyələrini verirlər, bukletlər, kitabçalar paylanır. Əgər 5-10 il bundan əvvəlki vaxtla indiki dövrü müqayisə etsək, görərik ki, nəqliyyat vasitələri tərəfindən məktəblilərin vurulması minimum həddə endirilib. Çünki biz məktəblilərlə çox səmimi söhbətlər edir, onlara yol hərəkəti qaydalarını başa salır, təyin olunmuş yerüstü, yeraltı keçidlərdən, işıqforların olduğu və xüsusi zolaqlanmış yerlərdən istifadə etməyi tövsiyə edirik. Təbii ki, bu cür təbliğat işləri yol hərəkəti qaydalarını mənimsəməkdə məktəblilərə çox böyük kömək göstərir və nəticədə onların təhlükəsizliyi təmin edilir...

**- Gəlin razılaşaq ki, bu gün yol hərəkəti qaydalarına əməl etməyən sürücü də var, piyada da az deyil. Təbii ki, onların arasında məktəblilər də olur. Bax, necə etmək olar ki, məktəblilərin avtomobillərlə vurulması halları tamamilə aradan qaldırılsın...**

- Birmənalı olaraq deyə bilərəm ki, yol polisi bu vəzifənin öhdəsindən bacarıqla gəlir. Çünki biz hər gün gördüyümüz təhlükəsizlik tədbirləri ilə bağlı məlumatları rəhbərliyin diqqətinə çatdırırıq. Onlar da bu məlumatları alandan sonra təhlil edir, nöqsanları diqqətimizə çatdırır və öz məsləhət və tövsiyələrini verirlər. Deməli, yenə baş verə biləcək qəzaların yaranmasında yük sürücülərin və piyadaların üzərinə düşür. Biz hər tərəfdə bir yol polisi qoya bilmərik ki, hərəkətə nəzarət etsin. Amma hər tərəfdə kameralar var. Sadəcə olaraq, sürücü və piyada öz üzərinə düşən məsuliyyəti hiss etməlidir. Və bəzən görürsən ki, ya sürücünün, ya da piyadanın məsuliyyətsizliyi üzündən yol-nəqliyyat hadisəsi baş verir. Biz yol hərəkətinin təşkili ilə əlaqədar olaraq bu məsələləri mütəmadi olaraq təhlil edib araşdırır və qabaqlayıcı tədbirlər hazırlayırıq. Ancaq gərək hər bir valideyn övladlarını diqqət mərkəzində saxlasınlar. Əgər yol polisi, sürücü və piyada öz üzərinə düşən vəzifəni yerinə yetirsə, baş verə biləcək qəzaların qarşısını əsaslı surətdə almaq olar...

**- Cənab polkovnik, son olaraq dərs ilinin başlanması ilə bağlı hərəkət iştirakçılarına məsləhət və tövsiyələriniz?**

- Mən konkret olaraq həmin günü uşaqlarını, övladlarını məktəbə gətirən valideynlərə, sürücülərə üzümü tutub deyirəm ki, məktəbin yanından keçən, yollarda və küçələrdə avtomobilləri necə gəldi saxlamasınlar.

Uşaqları düşürən kimi həmin yerdən uzaqlaşsınlar, "dayanma", "durma" qaydalarına riayət etsinlər. Əks təqdirdə, bu cür sürücülər yol polisi və Bakı şəhər Nəqliyyat Agentliyi tərəfindən məsuliyyətə cəlb ediləcəklər.

Eyni zamanda uşaqlarını piyada məktəbə gətirən valideynlərə də tövsiyəm odur ki, həmin günü yol hərəkəti qaydasına əməl etsinlər və yolun təyin olunmuş yerindən keçsinlər. Belə olarsa, heç bir peşmançılıq yaranmaz, hamı sağ-salamat məktəbə gəldiyi kimi evinə də geri qayıtmış olar...

**Söhbətləşdi:**
**Faiq QİSMƏTOĞLU**

### "Sınıq körpü"nün bərpa işləri ilin sonuna kimi başa çata bilər



**Ötən ilin əvvəllərindən bərpasına başlanılan "Sınıq körpü"də (Qırmızı körpü) müəyyən işlər artıq yekunlaşmaq üzrədir.**

**Bunu Trend-ə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynov deyib.**

**Onun sözlərinə görə, bərpa işləri tam sürətlə həyata keçirilir:**

**"Hazırda körpünün uçmuş tağında bərpa işləri başa çatmaq üzrədir.**

**Bundan başqa, körpünün üstü, yanları, karvansaray artıq torpaq qatından təmizlənib, körpünün fasadında, parapetində və üst örtüyündə bərpa işlərinə başlanılıb".**

**F.Hüseynov əlavə edib ki, körpüdə nəzərdə tutulan bərpa işlərinin ilin sonuna kimi başa çatdırılması planlaşdırılır.**

**Qeyd edək ki, abidənin bərpa və konservasiya layihəsi "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən hazırlanıb. Hazırda körpüdə olan karvansaraların, tağların bərpası həyata keçirilir, körpünün istinad divarları möhkəmləndirilir.**

**Bərpa işlərində abidənin tarixi görkəminin qorunmasına xüsusi diqqət yetirilir.**

**Körpünün üstü beton qatından təmizlənib. Abidənin üzəri tarixi görkəminə qaytarılıb.**

**Bərpa işləri başa çatdıqdan sonra körpüdən piyadaların keçidi üçün istifadə olunacaq.**

# Aşura Rəbbimizin Öz dinini sevdiyi bəndəsi vasitəsilə qoruduğu gündür




*Vaqif Cəliloğlu,*
*Tex. elmləri üzrə fəlsəfə doktoru*


Yaradılış baxımından Allah ilin 12 ay və günlərini eyni dəyərdə xəlq edib. Lakin bu ay və günlər içərisində elə hadisələr baş verib ki, onlar həmin ayları digər ay və günlərdən qiymətli edib. Yəni ilk yaradılışdan eyni dəyərə sahib olan ay və günlərin içərisində elələri var ki, digərlərindən daha qüdsi (müqəddəs) və mübarəklik (xeyirli, xoşbəxt) qazanıblar. Məsələn, Quranın nazil olması ilə Ramazan ayı, duanın rədd edilmədiyi Cümə günü, ibadət baxımından min aydan üstün olan Qədr gecəsi və s. Hicri qəməri təqvimində yeni ilin ilk ayı olan Məhərrəm və Aşura da belə ay və günlərdən biridir.

### *Aşura*

Aşura Məhərrəm ayının 10-cu gününün adıdır. O da Allahın yaratdığı günlərdən biridir. Fəqər Aşura həmin gündə baş verən mühüm hadisələr etibarilə müqəddəslik qazanıb. Adəm (ə)-nin tövbə etməsi, həz. İbrahim və İsa (ə)-nin mövludları, Musa (ə)-nin Ölü dənizi keçməsi və Fironun boğulması Aşura günündə olub. Həz. Nuhun beş-altı nəfərlə tufandan xilas olması həmin günə təsadüf edib. Böyük həcc ziyarətindən sonra profilaktik tədbirlər məqsədilə bağlanan Kəbə qapısının ziyarət edənlər üçün Aşura günündə açılması da bu günün dəyərlərindən biridir.

### *Aşura fəlsəfəsi*

Məhərrəm ayının Aşura günü həm də Peyğəmbər (ə) nəvəsi Həz. Hüseynin iman və İslam dininin saflığı uğrunda şəhid olduğu, baba və atasının ucaltdığı etiqad atını yenidən şahə qaldırdığı gündür. Aşura İslam dininin varlıq qayəsi, insan haqq və azadlıqları uğrunda 19 il mücadilə aparan imam Hüseynin bir şəhid kimi özündən sonra bütün dünyaya örnək olan "Hüseyn fəlsəfəsi", "Hüseyn məktəbi"ni yaratdığı gündür.

Lakin təəssüflər olsun ki, bu məktəb hələ də öz obyektiv təhlil və təbliğini lazımınca tapmayıb. Əksinə, bəziləri bu fenomen hadisəni ya ifrat, ya da təfritə vararaq, onun dini və dünyəvi əhəmiyyətini zədələyirlər. Hadisəni sırf matəmə çevirənlər unudurlar ki, İslam iman, elm və saleh əməl vəhdətidir. Bu vəhdətin əsasını Rəbbin bəyəndiyi işlər uğrunda biganəlik yox, mübarizə təşkil edir. Təfritə varanlar isə, həmin fəlsəfəni cılızlaşdıraraq, onu həz. Hüseynin sırf siyasi hakimiyyət uğrunda mübarizəsi kimi qələmə verirlər. Əlahəzrət tarix isə hər iki yanaşmanı rədd edir.

"Güclü nə istəyirsə, ona nail olur" təsəvvürünü dağıtmaq bir tale yazısı kimi mənim boynuma düşən borcdur. Mən, məndən sonra gələcək nəsilləri düşünərək, bir zalım güclünün gücünə müqavimət göstərə biləcək başqalarının da mövcud olduğunu nümayiş etdirməyə çalışıram. Bu, əqidə, iman və vicdan məsələsidir. Və mən, həmin əqidə uğrunda ölməyə belə hazıram". İmam Hüseynə məxsus olan bu tezis Hüseyn fəlsəfəsinin mayası və nüvəsidir. 661-ci ildə həz. Əlinin şəhadətindən sonra Müaviyə camaatı qorxutmaq məqsədilə 40 minlik ordu ilə Xilafətin paytaxtı Kufəyə gəldi. O, həm də həz. Həsənin "qardaş qanı axıdılmamalıdır" sözündən məharətlə istifadə edərək, hakimiyyəti zorla mənimsədi. Lakin Kufə, Məkkə, Mədinə və digər bölgələrdə geniş sosial bazaya malik olan həz. Hüseyn, Əbu Bəkrin oğlu Əbdürrəhman və Zübeyrin oğlu Abdulla Müaviyəyə biət etmədilər. Başqa sözlə, onlar Müaviyə hakimiyyətinin legitimliyini tanımadılar. Hələ xəlifə həz. Əlinin dövründə Şam şəhərində "dövlət içərisində dövlət" yaradan Müaviyə, 669-cu ildə həz. Həsəni zəhərlədərək öldürtdü. Həz. Hüseyn "problemi" isə onu bir an rahat buraxmadı. Zira Müaviyə çox yaxşı bilirdi ki, imam Hüseyn xalq arasında həm ondan, həm də oğlu Yeziddən qat-qat artıq hörmətə malikdir. Tarixçi Təbəri (vəf.ed.923) yazıb: **"Ömrünün sona çatdığını başa düşən Müaviyə sağlığında oğlu Yezidi varis kimi tanıtmaq üçün Yezidə biət edilməsini istədi. Yezid hərəkətlərinə görə fasiq (pozğun) sayılırdı. Və belə adamın xəlifəliyə namizədliyini qəbul etmək mümkün deyildi. Hüseyn, Abdullah ibn Ömər, Abdullah ibn-Zübeyr, Əbdürrəhman ibn-Əbu Bəkr və ibn Abbas təbii ki, bunu qəbul etmədilər. Müaviyə ölüb, yerinə Yezid xəlifə olduqda (680-cı il) o, Mədinə valisi Validə tapşırdı ki, həz. Hüseyn yeni xəlifəyə (Yezidə) biət etsin. Valid: "Ya Hüseyn, Yezid səndən biət istəyir". Hüseyn: "Mənki onun atasına baş əymədim. İnsanlar hər biət istəyənin qabağında əyilməyə alışsalar, bəs onda etiqad harada qalar?"**

680-cı il Kərbəla hadisəsi təkcə haqq ilə batilin, zülm ilə ədalətin mücadiləsi olmayıb. Bu, həm də imanı saleh əməl ilə reallaşdıran bir qəhrəmanlıq salnaməsidir. Yezidin çoxminlik ordusunun əhatəsində olan İmam buyurdu: **"Təkcə mən qaldım... Cəsarəti olan varsa, gəlsin bir anlığa onunla yerimizi dəyişək. Qoy o, buradan, mənim dayandığım yerdən sizlərə baxsın. Əgər qorxmayıb, atın üstündə duruş gətirə bilsə, başımı öz əllərimlə kəsərəm. Amma mən qorxmuram. Bilirəm ki, insanların inamı zalımın zülmünü basar. Bu dünya çox yezid görüb. Vaxt gələr, yezidlərə baş əyməyənlərin sayı çoxalar və onlar bugünkü hadisəni böyük ehtiramla yad edərlər".**

Həz. Hüseynin zülm, batil, yezidlik qarşısında əyilməyən başı Kufə küçələrində gəzdirilərkən, sanki o baş deyildi: **"Ey kəsik başların nümayişinə çıxan kufəlilər! Mən Yezidə boyun əymədim. Əymədim ki, sizə zülm etməsinlər. Mən- həz. Məhəmmədin nəvəsi, həz. Əlinin oğlu başım kəsildisə, vay sizin halınıza. Kəsik başların nümayişinə çıxmaqdansa, ibrət götürüb niyə zülmə qarşı çıxmırsınız? Niyə öz gələcəyinizi düşünmürsünüz?".** Bəli, həz. Hüseyn baba və atasından miras qalan etiqad atını Kərbəlada elə şahə qaldırdı ki, bu inam və əqidə onun Kufədə nizəyə taxılmış kəsik başından da yüksəkdə oldu.

Təqribən əlli yeddi il yaşayan imam Hüseyn (ə) sözün həqiqi mənasında çox şərəfli ömür yaşayıb. Başqa cür ola da bilməzdi. Çünki o, Peyğəmbər övladının parlaq nişanəsi kimi mənəvi vilayət və Quranın nazilolma mühitində tərbiyə almışdı. Həmin səbəbdən imam Allah rizası naminə imkanın son həddinə qədər getdi və şəhadəti ilə əbədi ölməzlik simvoluna çevrildi. Bu baxımdan, vəhy ailəsinin - Əhli beytin əbədiyaşar nümayəndəsi olan imam Hüseynin qəhrəmanlıq salnaməsi onun şəhadətindədir desək, məncə yanılmarıq. Çünki Rəbbimiz məhz bu şəhadətlə Öz dinini qorudu. Axı müsəlmanların nicatı, İslam şəriətinin davamlığı və Quran fəzilətinin tədrisi imam Hüseynin (ə) getdiyi yolda idi.

### *"Quranı Biz nazil etdik, onu Biz də qoruyacağıq"*

Sonuncu kitabında Allahu-Təala buyurub: "Quranı Biz nazil etdik, onu Biz də qoruyacağıq". Lakin bu zəmanəti Rəbbimiz seçdiyi bəndələri vasitəsilə yerinə yetirir. Vaxtilə İslam elm və mədəniyyət ocaqlarını taru-mar, müsəlman ölkələrini işğal edən səlibçilərin (XI-XII əsrlər) layiqli cavabını verən Səlahəddin Əyyubi kimi. S.Əyyubinin (1138-1193) haqq qılıncı İslama təcavüz edən digər din mənsublarına qarşı idi. Və həmin işğalın ilhamvericisi də Vatikanın o vaxtkı rəhbərliyi olub. Həz. Imam Hüseyn isə mücadiləni -vuruşu namaz qılan , oruc tutan və İslamın digər hökmlərini icra edən fasiq (pozğun) müsəlman xəlifə və onun ordusu ilə - Yezid və yezidçilərlə aparıb. Yəni S. Əyyubi xaricilərlə- başqa din mənsubları ilə vuruşubsa, imam Hüseyn(ə) ondan daha qəliz olan daxili düşmənlərə- zahirən müsəlman, daxilən Rəbb kəlamlarına, Peyğəmbər (ə) sünnətinə asi olan bir xilafətin hakimiyyətinə qarşı çıxıb.

Təbəri yazıb: **"Hüseynin kəsilmiş başı Kufəyə gətirildiyi zaman Yezidin Bəsrə və Kufəyə vali təyin etdiyi Ubeydullah əlindəki əsa ilə Hüseynin dodaqlarına toxundu. Orada olan Əbülbərzə və digərləri bu səhnəyə dözə bilməyib, ondan əsasını çəkməsini tələb etdilər. Çünki onlar həz. Peyğəmbərin bu dodaqlardan çox öpdüyünün şahidi idilər. Ubeydullah bu hərəkətilə kifayətlənməyərək Hüseynin əsir alınan bacısı və qızlarını lağa qoymaq istəmişdi".** Bəli, bu, namazından, orucundan qalmayan və Yezid hakimiyyətində iki böyük şəhərə valilik edən Ubeydullah idi. O Ubeydullah ki, **"Hüseyn məndəndir, mən Hüseyndənəm, Allah Hüseyni sevənləri sevər"** Peyğəmbər (ə) kəlamının şahidi idi.

Məgər həz. Hüseynin sağ əlini qılıncla kəsən Zürə ibn Şarik namaz qılmırdı? Ya imamın başını kəsib müvafiq ənam alan Sinan ibn Ənəs müsəlman deyildi? Onların hamısı müsəlman idi, Rəbb və Peyğəmbər (ə) kəlamlarını da yaxşı bilirdi.

Nəticə nə oldu? İmam Hüseyn(ə) əqidə, iman ağacını öz qanı ilə suladı, məzlum başları kəsilmiş başı ilə şərəfləndirdi. Dünyəvi və uxrəvi (axirət) kamil şəhid zirvəsini fəth edərək qiyamətə qədər Vətən, Din, Bayraq uğrunda canlarını qurban verən şəhidlərin ağasına çevrildi. Bu hadisədən az sonra tarix Yezid və yezidçiləri lənətxanaya atdı və Rəbbimizin: "Quranı Biz nazil etdik, onu Biz də qoruyacağıq" kəlamı zəfər çaldı!

Məhərrəm ayı və Aşurada baş verən mühüm hadisələr Rəbbin icad və qüdrətindən doğan hikmətlərdir. 680-cı il Kərbəla hadisəsi dünyada analoqu olmayan Təvhid və Nubuvvətə inam, birlik və azadlığın əməli vəhdəti, sədaqət və iradə qaynağı kimi nəsillərin yaddaşına əbədi həkk olunan şəhidlik məktəbi, dünya müsəlmanlarının qan yaddaşıdır. Deməli, "Hüseyn fəlsəfəsi" yurd-yuvası olmayan, səpələnmiş bir etnik qrupun - xarici yezidlərin 200 il ərzində Azərbaycan torpağına sahib çıxması baxımından bir müsəlman, bir azərbaycanlı kimi hamımız üçün ibrət, təhlil və mübarizə qaynağı olmalıdır. "Hüseyn fəlsəfəsi" özünü Yezid kimi müsəlman adlandıran, fəqət əməlilə yezidlik edən daxili yezidlərimizə qarşı mübarizə məfkurəsi olmalıdır. Bu fəlsəfə çağdaş dövrümüzdə Suriya və digər ölkələrdə müsəlmanın müsəlman qanına susaması kimi anti-bəşər fəaliyyətə əməl ilə "yox" deməyin adıdır. Hüseyn fəlsəfəsi Aşurada baş yarmaq, zəncir vurmağın yox, sədaqətin, vəfanın, doğru söz və saleh əməlin təntənəsi, elm və təcrübə vəhdətinin mayasıdır. Unutmamalı ki, Məhəmməd (ə) ümməti olaraq bizim başqa ümmətlər içərisində söz sahibi olmağımız məhz bu dəyərlərlə reallaşa bilər.

Vaxtilə Rəbb Musa(ə)-nin qorxaq və müti camaatını hidayətə çatdırmaq üçün buyurdu: **"Mən sizin qeyrətinizi millət anlayışı olmayan bir xalqla oyadacam".** Deməli, Hüseyn məktəbinin verəcəyi ən böyük dəyərlərdən biri də, Rəbb buyuran oyanışın bizdə davamlı olmasıdır.

***P.S.** Məhərrəm ayında matəm mərasimi ilk dəfə İraqda, Buveyhüllə oğulları tərəfindən saxlanılıb. Aşura ilk dəfə olaraq, rəsmən 963-cü ildə İranda keçirilib. Sonradan Şah Abbas dövründə (1571-1629) bu ənənə kifayət qədər geniş yayılıb. Səfəvilər vaxtında şiəlik rəsmi din kimi qəbul olunduqdan sonra, Məhərrəm ayının yas ovqatında keçirilməsi adət halını aldı. Aşuranın mərsiyələrlə keçirilməsi isə XVIII əsrdən başlayıb. Belə ki, həmin əsrdə İranda Kərimxan Zəndin yanına bir avropalı gəlib, ona faciə janrında söhbət açır. Bu söhbətdən təsirlənən Kərimxan əmr edir ki, Kərbəla faciəsi də mərsiyələrlə keçirilsin.*

## *M.A. Suslovun sevimli anektodu*



***Vaxtilə ölkənin baş antisemiti Mixail Andreyeviç Suslov danışdığı bu anektoda hələ də gülürük.***

Sovetin vaxtı.

Bulvara bir çəllək kvas gətirirlər. Satıcı onu qoşqudan açıb satmağa hazırlaşır.

Bir nəfər yaxınlaşır:

-Çəlləyin hamısının qiyməti nə edir?

-Özün hesabla: iki yüz litr, hər bardağı da 30 qəpikdən. Yüz iyirmi manat.

-Al, bu da sənin pulun, get gəz, kef elə. Axşam gəlib boş çəlləyi götürərsən.

-Yaxşı!

Satıcı çıxıb gedir. Kişi plakat açır: "Kvas pulsuzdur".

Camaat əvvəlcə təəccüblənir. Sonra yavaş-yavaş yaxınlaşır. Sonra növbə, sonra uzun növbə, daha sonra əsl izdiham. Söyüş, hay-həşir. Kimi növbəsiz soxulur, kiminə çatmır. Dava, mərəkə, bıçaqlaşma.

Milis gəlib, izdihamı dağıdır. Təhrikçilərisə qoduqluğa.

Kişini də aparırlar.

Sıxma-boğmaya salırlar.

-Dava salmaqda məqsədin nə idi?

-Qətiyyən belə bir məqsədim yox idi!

-Qeyri-qanuni ticarətlə məşğulsan?

-Camaata havayı kvas paylayırsan. Şahidlər var.

-Deməli oğurlamısan!

-Öz pulumla almışam. İxtiyarım çatır.

-Bəlkə dəlisən?

-Normal adamam. Arayışım var.

-Yaxşı, başa düşdük, biz səni buraxırıq. Ancaq, de görüm, niyə bunu edirdin? Niyə öz pulunu göyə sovurursan? Niyyətin nədir?

- Yaxşı, qoy deyim. Mən artıq yaşlı adamam. Dəqiq bilirəm ki, kommunizmə kimi yaşaya bilməyəcəm. Ancaq çox istəyirdim ki, kommunizmin necə olacağını öz gözlərimlə görüm...

Kommunizmdə...

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 141 (1989) 10 sentyabr 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR



Allah-Allah türbəsi və Nüşabə qalası 1322-ci il Bərdə şəhəri

# BƏRDƏ NECƏ GÖZƏL, NECƏ QƏŞƏNGDİR

(əvvəli ötən sayımızda)

**Tariximizin antik dövründən bu günə qədər olan silsiləsini gözdən keçirəndə əvvəldə də vurğuladığımız kimi qədim Bərdənin diqqət çəkən və bizim üçün qürur gətirən səhifələrini heyrət içərisində öyrənirik. Öyrəndiyimiz bu tarix ona görə bizi heyrətləndirir ki, biz bəzən kimliyimizi unudur və yaxud ona laqeyd münasibət bəsləyirik. Amma həqiqət müdriklərinin də dediyi kimi, nə qədər dərinə basdırılsa da, o qızıl kimi öz parlaqlığını qoruyub saxlayır.**

Deməli, qədim Bərdənin tarixindəki həmin o şərəfli səhifələrdə diqqətçəkən məqamlar bizdən çox-çox uzaqda olsa da, amma alimlərimizin, xüsusilə arxeoloqlarımızın fədakarlığı sayəsində günümüzə gəlib çıxıbdı. Və məlum olub ki, hələ qədim Albaniyanın mövcud olduğu V-VII əsrlərdə bizim dövlətçilik təcrübəmiz, dövlətçilik mədəniyyətimiz mövcud olub. Yəni bu gün Azərbaycan torpaqlarına hərisliklə göz dikənlər dövlət anlayışını bilməyəndə, qədim Albaniyada bu ənənə möhkəmlənib, nəticədə də Azərbaycan adlı dövlət müstəqil şəkildə mövcüd olubdu.

Həmin qədim Albaniyanın paytaxtı olan arxeoloq tarixçi Şamxal Şəbiyevin verdiyi bilgilərə görə, Bərdə şəhəri zamanında təkcə mövcud olduğu coğrafi məkanda deyil, bütün Şərqdə böyük diqqət mərkəzində olmuş və bunun da başlıca səbəbi Bərdə şəhərinin həm də bir iqtisadi zona kimi inkişaf etməsi faktoru vurğulanır. Yəni Bərdə şəhərində böyük bazarların olması, ticarətin şaxələnməsi, həmçinin sənətkarlığın geniş vüsət alması şəhərin həm özünün tikinti, memarlıq baxımından inkişafına, həm də əhalinin, yeni sakinlərin sosial rifahına görə, önə çıxmasına səbəb olmuşdu. Birmənalı şəkildə demək olar ki, Bərdə şəhərinə doğru üz tutan karvanların bu şəhərin nə qədər böyük ticarət mərkəzi olmasına bir sübut kimi göstərmək olar.

Öncə qeyd etdiyim tarixçi alimin fikirlərinə görə, zamanında bütün böyük güclərin diqqət mərkəzində olan Ağbaniya və onun paytaxtı Bərdə şəhəri öz inkişaf yolunu və nüfuzunu qoruyub saxlaya bilmişdi. Xüsusilə tarixdə çox böyük iz qoymuş Cavanşirin müdrikliyi, çevik siyasəti sayəsində ətrafda olan Sasani və Bizans imperiyaları, Xəzər xaqanlığı, Ərəb xilafəti və digər böyük güclər Albaniya ilə hesablaşmağa məcbur olmuşdular. Təbii ki, bunun da əsas səbəblərindən biri paytaxt Bərdə şəhərindən Albaniyanı idarə edən qüdrətli dövlət xadimlərinin olmasıdı. Həmin zamanda Bərdənin özündə həm də kifayət qədər nüfuzlu elmi ictimai xadimlər də yaşayırdılar. Onların arasında adı tarixə yazılmış şair Dəbdək də Bərdədə yaşamışdı.



Aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış V-VII əsrə aid maddi və mədəni nümunələr sübut edir ki, Bərdədə çoxlu sayda elm, təhsil ocaqları fəaliyyət göstərir. Və mövcud olan alban əlifbası ilə həm bədii əsərlər, həm də tarixi əsərlər yazılmışdı. Maraqlıdır ki, günümüzə qədər gəlib çatmış M.Kalankatunun "Albaniya tarixi" də məhz burada yazılmışdır.

Çox təəssüf ki, çiçəklənən, inkişaf edən Bərdə 705-ci ildə ərəblər tərəfindən işğal olundu, xilafət Albaniyanın müstəqilliyinə son qoydu. Amma buna baxmayaraq, ticarət yolun üstündə yerləşən bu şəhər yenə öz əhəmiyyətini itirmədi. Çünki böyük ticarət yolunun üstündə olan Bərdə şəhəri həm Qafqazın, həm də Yaxın və Orta Şərqin şəhərlərini bir-birilə birləşdirir, bu əlaqələr də öz növbəsində Bərdənin bir ticarət, bir elm, bir sənət beşiyi kimi qalmasında öz sözünü deyirdi.

Bu gün ədəbiyyat tariximizə, mədəniyyət tariximizə nəzər yetirəndə onda görürük ki, qədim dövrələrin tanınmış imza sahiblərinin bir çoxu məhz Bərdə şəhərində yaşayıb yaradıblar. Onların bir çoxu da "Bərdə" təxəllüsü ilə imzaları tanıdıblar. Bunların arasında riyaziyyatçı, təbib, filoloq, hüquqşünas, tarixçi, natiq, münəccim, siyasi xadim, hədisçi və digərləri təkcə öz zamanında deyil, bütün zamanlarda tarixin yaddaşında yaşayıblar və yaşayırlar. Həmin imzalara diqqət yetirəndə hər kəsin ad sonluğunda Bərdəli, Bərdə, Bərdəyi imzaları insana həqiqətən qürur verir. Məsələn, Şeyx İbrahim ibni Şihabəddin Gülşəni Bərdəyi və yaxud, Sədulla əl-Bərdəyi, Qazi Məhiyəddin Bərdəyi, Ömər əbu-i-Həsən əl-Bərdəyi və digərləri söylədiklərimizə real bir nümunə sayıla bilər.

Bütün zamanlarda inkişaf etmiş şəhərlər, ölkələr qonşu məmləkətlər tərəfindən həmişə maraq mərkəzində saxlanılıb. Yəni bu cür torpaqlara, bu cür şəhərlərə böyük güclər həmişə sahib olmağa çalışıblar. Ona görə də Bərdə şəhəri də müxtəlif dövrlərdə hücumlara məruz qalıbdı. Bax, ərəblərdən sonra bu əraziyə rusların da marağı artıbdı. Bu maraqlar da təbii ki, müharibələrə gətirib çıxarıbdı. Baş verən müharibələr də Bərdə şəhərinin dağılmasına, talan olmasına yol açıbdı. Hətta tarixçilərin biri, yəni ərəb coğrafiyaşünas səyyahlardan olan ibn Havqəl ruslarla bu ərazidə olan döyüşlərdən sonra Bərdəyə səfər etmiş və gördüklərindən heyrətlə, təəssüflə yazmışdı: "Ruslarla müharibə zamanında baş verənlərə baxmayaraq, Bərdənin bazar, karvansara və hamamları çoxdur". Amma digər bir tarixçi isə vurğulamışdı ki, "şəhər artıq dağılmış, əhalisi isə azalmışdı. Bərdə qalasının nizamı da pozulmuşdu".

Bax, elmi ədəbiyyatlardan gətirdiyimiz bu sitatlardan da göründüyü kimi, Bərdənin bir paytaxt, bir şəhər kimi süqutunda əsas səbəb onun sürətli inkişafı və burdakı həyat səviyyəsinin yüksək olması idi. Çünki düşmənlər bu şəhərə qarşı çox acgözlük nümayiş etdirirlər. Ona sahib olmaq üçün qan tökməkdən də çəkinmirdilər. Tariximizin müxtəlif dövrlərində, yəni Atabəylər, Elxanilər dövrlərində də bu şəhər həmişə inkişaf etmiş, dağılmış, talan olmuş və yenidən bərpa edilmişdir. Hətta Əmir Teymurun Azərbaycana yürüşü zamanı bu şəhərdən yan keçməmiş, onun tarixində öz izini qoymuşdur.

**Bəli, qısaca səyahət etdiyimiz qədim Bərdənin yaddaşında I Şah İsmayılın, I Təhmasibin, Nadir Şah Əfşarın və digərlərinin də izləri var. Həmin izləri qədim Bərdənin bu günə gəlib çıxmış qalıqları və oradan tapılan nümunələr bu günümüzə qədər gətirib çıxarıbdı. Sevindirici haldır ki, bu gün də Bərdə Azərbaycanın yenidən qurulan, inkişaf edən, gözəlləşən şəhərlərinin sırasındadır.**

**Əbülfət MƏDƏTOĞLU**

# Sənət fədailəri və ya unudulmağa məhkum olanlar

## (Respublikanın əməkdar artisti Qurban Abbasovun əziz xatirəsinə)

***(On birinci yazı)***

**Deyirlər elə insanlar var ki, dünyaya gəlişləri ilə birgə istedadları da onlarla bərabər ana bətnindən doğulur. Bu kimi insanlar elə öz istedadlarının sayəsində zamanının və dövrünün tanınmış simalarına çevrilə bilirlər. Elə səhnə ustaları var ki, onların sənət yolu bir teatrın yaradıcılıq yoludur, səhnəyə gətirdikləri hər bir yenilik bir teatrın yeniliyidir. Yaratdıqları hər bir obraz epizodik olsa belə, tamaşaçının yaddaşına əbədi həkk olunur, öz xalqının milli sərvətinə, milli teatr tarixinin bir səhifəsinə çevrilir və mənəvi güc, idrak aydınlığı ilə həyatın həqiqət səviyyəsinə enməyi bacarırlar.**

Əlbəttə ki, qətiyyən unutmaq olmaz ki, hər bir tamaşaçı teatra hər şeydən əvvəl aktyor yaradıcılığına, istedadına, aktyor oyununa baxmağa gəlir. Hər zaman olduğu kimi tamaşaçını ən çox maraqlandıran məhz aktyor oyunudur. Sözsüz ki, aktyorun tamaşaçının sevimlisi olması isə əsas şərtlərdəndir. Gəncə Dövlət Dram Teatrının istedadlı aktyorları sırasında bu gündə adı hər zaman xatırlanan, mərhum respublikanın əməkdar artisti Qurban Abbasov da sevilən sənətkarlarımızdan biri idi. Sadə dramatik rollarda, tipik-xarakterik personajların ifasında daha çox uğur qazanan, maraqlı lirik-psixoloji və həmçinin səciyyəli qəhrəman rollar ilə yaddaşlarda yaşayan Qurban Abbasov yaratdığı hər bir obrazlarında qəlbinin hərarəti, psixoloji istilik və duyumları ilə xatırlanır.

Qurban Məmiş oğlu Abbasov 2 yanvar 1944-cü ildə Göyçə mahalının Qarabağlar kəndində dünyaya gəlib. 1949-cu ildə ailəsi ilə birlikdə Bakıya köçüb. Valideyinlərini vaxtsız itirdiyindən qardaşının himayəsində böyüyüb. 1951-ci ildə Keşlə qəsəbəsi S. Vurğun adına orta məktəbə daxil olub və 1958-ci ildə yeddi illik orta təhsilini bitirib. Daha sonra Göycay Kənd Təsərrüfatı Texnikomuna daxil olub. 1962-ci ildə həmin texnikomu bitirib. 1963-1968-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsilini davam etdirib. Təyinatla Gəncə Dövlət Dram Teatrına göndərilib və 1968-1998-ci illərdə yaradıcılığı ancaq bu teatrla bağlı olub. Aktyorun yaradıcılığına nəzər salarkən bir daha ən kəskin dramatik vəziyyətlərdə çıxışlar edərkən belə ifasında daxili aktyor təmkinini böyük ustalıqla saxlaya bilməsinin şahidi olursan. Onun səhnədə hər zaman obrazın psixoloji duyumunda həsas aktyorluq qabiliyyətinin olması ilə yanaşı ifa etdiyi personajın daha xarakterik cəhətləri və cizgilərini qabarıq bir formada göstərdiyini də görmək mümkün idi.

Qurban Abbasov Gəncə Dövlət Dram Teatrında milli klassik dramaturgiyamızın, çağdaş Azərbaycan müəlliflərinin müxtəlif janrlı həmçinin tərcümə əsərlərinin səhnəyə qoyulan tamaşalarında müxtəlif səpgili obrazlar qaleriyasını yaradıb. Professor Bağır Bağırov onun yaradıcılığı haqqında yazırdı: ”Yusif Əzimzadənin 1975-ci ildə Gəncə Dövlət Dram Teatrının səhnəsində hazırlanan ”Unutmayın” (quruluşçu rejisor, əməkdar incəsənət xadimi Həsən Ağayev, rəssamı Oqtay Qoşqarov) pyesində Qurban Abbasovun yaratdığı Əli Dadaşov surəti onun ifasında öz daxili temperamenti, nitq mədəniyyəti, obrazın xarakterini açmaq üçün tapdığı cizgilər, aktyorluq məharəti ilə seçilirdi. Onun ifasında Əli Dadaşov zəngin mənəviyyata malik, doğma yurda, vətənə və xalqa qəlbən bağlı, əsgəri andına sədaqətli, düşmənə qarşı sonsuz nifrət bəsləyən bir gənc olaraq qarşımızda canlanırdı.”

Aktyorun Ə. B. Haqverdiyevin ”Bəxtsiz cavan”da Fərhad, İ. İbrahimovun ”Anaların divanı”da Yusif İdris, C. Cabbarlının ”1905-ci ildə”də Eyvaz, ”Aydın”da Surxay, ”Yaşar”da Toğrul, ”Oktay Eloğlu”da Aslan bəy, S. Rəhmanın ”Xoşbəxtlər”də Sadıq, ”Əliqulu evlənir”də Azad, ”Küləklər”də Əlibala, S. Vurğunun ”Fərhad və Şirin”də Şiruyə obrazları milli klassik dramaturgiyamızın nümunələrində yaratdığı maraqlı obrazları silsiləsinə daxildir.

Respublikanın əməkdar artisti Qurban Abbasov hər zaman səhnədə roldan- rola inkişaf edən, bir qədər də narahatlıqla hər bir mizanı və obrazın daxili aləmini dərindən öyrənməyə ciddi səy göstərən bir yaradıcı şəxs olaraq yaddaşlarda yaşayır. Onun ifasında 11 oktyabr 1968-ci ildə xalq artisti Vaqif Şərifovun quruluşunda 4 pərdəli, 9 şəkildən ibarət məşhur tənqidçi-estetik İslam İbrahimovun ”Anaların divanı” faciəsində yaratdığı Yusif İdris obrazı maraqla baxılan surətlərindəndir. Qeyd etmək lazımdır ki, ”Anaların divanı” siyasi publisistika janrında yazılıb. Rəmzi ad daşıyan obrazlar müasir dövrün ictimai-siyasi mürəkkəbliklərini insana məhəbbət və saygı prizmasından təcəssüm etdirirdi. Həmçinin quruluşçu rejisor, xalq artisti Vaqif Şərifovun maraqlı traktofkası müasir dinc həyatın qorunması, sülhün bərqərar olunması kimi ideyanı öz tamaşaçılarına təlqin edirdi. Pyesdə ərəb oğlu Yusif İdris - Qurban Abbasov böyük ideallarla yaşayaraq təhsil almaq istəyir. Akt-



yor gənc vətənpərvərin surətini məharətlə yaratmaqla obrazı tamaşaçıya sevdirmək üçün yeni boyalar axtarmaqla hərəkət və davranışını ətrafdakılara münasibəti ilə fəal mövqeyini təqdim edə bilirdi. Professor Bağır Bağırov yazırdı: ”Teatrın gələcəyi naminə layiqli aktyor nəsli yetişdirmək yaradıcı kollektivin qarşısında bir problem kimi durur və hazırda da durmaqdadır. Fərəhli haldır ki, teatr özünü sənətə bağlayan istedadlı gənclərin bir qrupunu ətrafında toplamağa nail ola bilib. Bu istedadlardan biri də Qurban Abbasovdur. Böyük ümid verən yaradıcı gəncliyin nümayəndəsi kimi Qurban Abbasov öz yaşlı sənət müəllimlərindən səhnə sənətinin sirlərini dərindən öyrənir, öz üzərində müstəqil çalışır və bir aktyor kimi püxtələşir.”

Gəncə Dövlət Dram Teatrında 22 aprel 1980-ci ildə tamaşaya qoyulan M. Şatrovun ”İnqilabi etüd” (Tərcümə edən İshaq İbrahimov, quruluşçu rejisor, əməkdar incəsənət xadimi Yusif Bağırov, rəssamı Nodar Qabrindaşvili) iki hisəli pyesində Qurban Abbasovun yaratdığı Lenin obrazı aktyorun yaradıcılıq nailiyyəti olaraq teatr ictimaiyyətinin diqqətini cəlb edə bilirdi. Təsadüfi deyil ki, post-sovet məkanı zamanı Azərbaycan SSR Mədəniyyət Nazirliyinin kollegiyası və Respublika Teatr Cəmiyyətinin Rəyasət Heyəti Leninin anadan olmasının 100 illiyi, Böyük Vətən müharibəsində qələbənin 35 illiyi, Azərbaycan SSR-nin və Azərbaycan KP-nın yaranmasının 60 illiyi münasibətilə dram teatrlarının respublika müsabiqəsinə yekun vurarkən ən yaxşı yaradıcılıq debütü üzrə birinci mükafatı məhz M. Şatrovun ”İnqilabi etüd” pyesinin tamaşasında Lenin rolunun ifaçısı Qurban Abbasova təqdim edib. Ə. Məmmədxanlının ”Şərqin səhəri”də Cavanşir bəy, İ. Qasımov və H. Seyidbəylinin ”Böyük ürək”də Rüstəm, N. Məmmədlini ”Unutmaq istəyirəm”də Əhməd, N. Gəncəlinin ”Məhəbbət körpüsü”də Azər, ”Səadət yağış deyildi”də Tərlan, Q. Mehdinin ”Oxşarlar”da Rəhman Kərimzadə, A. Məmmədovun ”Bəraət”də İslam, F. Əlyarbəylinin ”Xan qızı”da Haşım bəy və başqa çağdaş Azərbaycan müəlliflərinin müxtəlif janrlı əsərlərinin tamaşalarında həmçinin Q. Zapolskayanın ”Xanımın əxlaq dərsi”də Zbışko, M. Kərimin ”Aygül diyarı”da Kənar adam, O. Ioselianinin ”Araba hələ aşmayıb”da Buxuti, M. Qorkinin ”Qoca”da Pavel, U. Şekspirin ”III Riçard”da IV Eduard, E. Radzinskinin ”Sokratla söhbətlər”də Sokrat, D. Valeyevin ”Vicdan məhkəməsi”də Qarif kimi tərcümə əsərlərinin tamaşalarında Qurban Abbasovun çıxış etdiyi səhnə personajları hər zaman tamaşaçılar tərəfindən maraqla qarşılanırdı.

Görkəmli teatr və kino aktyoru, xalq artisti Məmmədrza Şeyxzamanov aktyor haqqında yazırdı: ”Gəncə Dövlət Dram Teatrının yaşlı nəslə mənsub aktyorları ilə gənc qüvvələr arasında möhkəm yaradıcılıq ünsiyyəti vardı. Belə gənc aktyorlar sırasında Qurban Abbasov xüsusi olaraq diqqəti cəlb etməklə, böyük sənət məktəbindən hər zaman bəhrələndiyini və inkişaf etdiyini göstərə bilir. Bu cür inkişaf və yaxınlıq yaradıcılıq baxımından etibarlı zəmindir.”

1980-ci illərdə Gəncənin Alimlər evində təşkil edilən xalq teatrı ciddi planda tamaşaların hazırlanmasında böyük səylər göstərirdi. Məhz bu teatrın uğurlu fəaliyyətində bədii rəhbər olaraq Qurban Abbasovun fəaliyyəti diqqət mərkəzində olmağı bacarırdı. Onun fəaliyyəti nəticəsində Rövşən Musayev, Mehriban Atayeva, Rövşən Əliyev, Namiq Tahirov, Rauf Həsənov, Arif Qulami, Elnur Məmmədov, Murad Əliyev, Rəşid Nağıyev, Rüstəm Abdullayev kimi gənc istedadların peşəkar səhnəyə bir aktyor olaraq yetişdirilməsində xidmətləri böyükdür.

**Aktyorun səhnə fəaliyyəti yüksək dəyərləndirilərək 24 dekabr 1981-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb. Qurban Abbasov 5 dekabr 1998-ci ildə Gəncə şəhərində vəfat edib və buradakı yeni Səbiskar qəbiristanlığındakı Fəxri xiyabanında dəfn olunub. Bu gün təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Qurban Abbasovun vəfatından 21 il ötməsinə baxmayaraq onunla bağlı heç bir dövrü mətbuatda geniş formada yazılar dərc edilmir və ya xatirə verilişləri belə hazırlanmır. Hətta xatirəsinin əbədiləşdirilməsi üçün yaşadığı binanın önündə belə xatirə-baralyef lövhəsi yoxdur. Görəsən böyük bir sənət məktəbi keçən və sözün əsl mənasında özünün möhtəşəm sənət məktəbini yarada bilən bu kimi sənət fəadilərinin unudulmasının və ya unudulmağa məhkum olunmasının əsas səbəbi nədir?**

**Bəlkə də elə biz, özümüzük!**

**Anar Burcəliyev**
**Teatrşünas**


**Elanlar**

**Məmmədov Əliqulu Vəliqulu oğlunun adına Ağcabədi rayon Torpaq şöbəsi tərəfindən 03.06.1998-ci il tarixdə verilmiş Torpaq mülkiyyət hüququna dair JN123, kod 60813038 qeydiyyat nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Axundov Qulam Mehdi oğlunun adına Bakı şəhəri Abşeron rayonu Fatmeyi kəndində yerləşən 0.06ha torpağın( Resytr nömrəsi 308013039868) Qeydiyyat nömrəsi 1612011307 olan çıxarış itdiyi üçün etibarsız sayılır.**


Məhərrəm Qasımlı, Səməndər Məmmədov, Asif Talıboğlu və Faiq Qismətoğlu **Vidadi Orucova** Qardaşı **NƏBİ ORUCOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**
Baş redaktor: **İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2500**
**Sifariş: 14**
Çapa imzalanmışdır: 9.09.2019